**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# HÜQUQ TERMİNLƏRİNİN LİNQVİSTİK TƏHLİLİ
**(Azərbaycan və fransız dillərinin materialları üzrə)**

İxtisas: 5704.01 – Dil nəzəriyyəsi

Elm sahəsi: filologiya

İddiaçı: **Ülviyyə İsmayıl qızı Həkimova-Aydın**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Hind-Avropa dilləri, Nəzəri Dilçilik və Müasir Azərbaycan dili şöbələrində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Səidə İbrahim qızı İbrahimova** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Nigar Çingiz qızı Vəliyeva** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Səbinə Əli qızı Süleymanova** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Nigar Vaqif qızı Seyidova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | filologiya elmləri doktoru, professor<br>**Nadir Balaoğlan oğlu Məmmədli** |
| Dissertasiya şurasının elmi katibi: | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Sevinc Yusif qızı Məmmədova** |
| Elmi seminarın sədri: | filologiya elmlər doktoru, dosent<br>**Gülsüm İsrafil qızı Hüseynova** |

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hüququn səciyyəvi xüsusiyyəti onu ifadə edən dillə sıx bağlılığından irəli gəlir. Hər bir xalqın adət-ənənələrindən, milli düşüncə tərzindən bəhrələnən bu iki elm sahəsi qarşılıqlı şəkildə daimi inkişafdadır və onlar arasında əlaqəni möhkəmləndirən vasitəçi – söz və tarixi-mədəni amillərdir. Hər bir milli dil hüququ davamlı şəkildə yaradan və zənginləşdirən milli hüquq sisteminin kulturoloji özünəməxsusluğunu əks etdirir. Məhz dil sayəsində düşüncə tərzləri, dəyərlər və xüsusilə diktə edilmiş milli qanunlar nümayiş etdirilir və hər bir xalqın milli-mədəni kimliyi müəyyənləşir.

Azərbaycan dilinin hüquq terminoloji leksikasının təkamülü onun hüquq sisteminin formalaşması mərhələlərinin inkişaf tarixi ilə sıx bağlıdır və bu proses hələ də davam edir. Belə ki, müstəqillik əldə etdikdən sonra qonşu ölkələrlə beynəlxalq hüquqi müstəvidə əlaqələrin artması, beynəlxalq hüquqla bağlı müxtəlif sənədlərə qoşulma və onların milli hüquq müstəvisində implementasiyası, yeni beynəlxalq təşkilatlara üzvlük, istər Azərbaycana, istərsə başqa ölkələrə münasibətdə qərarların qəbul edilməsi və onların Azərbaycanda məhkəmə təcrübəsi olaraq hüquqi qüvvəyə malik olması, məhkəmə qərarlarında ona istinadlar kimi bir çox amillər milli hüquq sistemimizin də inkişafına və yeni qanunvericilik bazasının yaradılmasına gətirib çıxarır. Beləliklə, müasir dünyada mədəniyyətlərarası hüquqi kommunikasiyanın artması nəticəsində başqa ölkələrdə uzun müddət tətbiq edilən hüquqi anlayış və konsepsiyalar artıq dilimizdə də aktivləşməyə başlayır. Bu proses zamanı Azərbaycanın qoşulduğu bir çox beynəlxalq təşkilat və sənədlərdə rəsmi işçi dil olaraq istifadə edilən və siyasi, coğrafi və tarixi-mədəni şərtlər səbəbilə fərqli hüquq sistemlərinin təsirini özündə əks etdirən fransız dili hüquq terminologiyasının dilimizə bilavasitə təsirini də vurğulamaq lazımdır. Belə ki, Azərbaycanın Qarabağ reallığı ilə bağlı *dövlət sərhədlərimizin müəyyənləşdirilməsində delimitasiya və demarkasiya işlərinin aparılması* anlayışındakı latın mənşəli olub, fransız dilindən rus dili

vasitəsilə alınmış *delimitasiya* və ispan dilindən XVII əsrin əvvəllərində fransız dilinə keçmiş və daha sonra bu dildən rus dili vasitəsilə alınmış *demarkasiya* terminlərinin dilimizdə tez-tez işlənməsi də buna bir sübutdur. Qloballaşma faktoru fransız dilinin hüquq terminoloji layında da öz təsirini göstərir. Məsələn, məhkəmə yurisprudensiyasına əsaslanan anqlo-sakson hüquq sistemində yaradılmış bir çox hüquqi prinsip və doktrinaların artıq AİHM-in qərarlarında istinad olaraq istifadəsi onların fransız, eləcə də Azərbaycan dillərində dil-ifadə planında həllini gözləyir. Bu baxımdan, fransız və xüsusilə Azərbaycan dilində hüquq terminlərinin (HT) yaranması mənbə və yollarının araşdırılması və bu terminlərin yaranmasında iştirak edə biləcək daxili söz yaradıcılığı üsullarının potensialından faydalanmaq imkanlarının aşkarlanması aktuallıq kəsb edir.

Terminin mahiyyəti, termin yaradıcılığı, termin və xüsusi dil münasibətləri kimi terminologiyanın ümumi nəzəri problemləri Azərbaycan və qərb dilçiliyində geniş tədqiqata cəlb edilmiş və dərindən təhlil edilmişdir. Bu baxımdan hazırki tədqiqat işində azərbaycanlı və xarici tədqiqatçıların (M.Qasımov, S.Sadıqova, N.Məmmədov, M.İsmayılova, T.Quliyev, İ.Qasımov, D.Lotte, A.Reformatski, A. Superanskaya, V.Danilenko, V.Leyçik, V.Proxorova, A. Rey, R.Kokurek, M. Kabre, R.Temmerman və s.) işlərindən istifadə edilmişdir.

Araşdırmalar göstərir ki, xüsusi diskurs və onun ötürülmə vasitəsi olan xüsusi dil anlayışlarının və bu anlayışların işığında hüquq dilinin, onun leksik-terminoloji layının elmi-nəzəri problemləri ilə bağlı rus və qərb dilçiliyində geniş ədəbiyyata (T.N.Xomutova, S.P.Xijnyak, O.V. Barabaş, K.Qaluşkina, J.Fonseka, J.Kornü, J-C. Jemar, O.Lor, K.Şmit, R.Şarnok və s.) müraciət etmək imkanı olsa da müstəqillik illərinə qədər demək olar ki, Azərbaycan dilçiliyində hüquq sahəsi üzrə terminoloji fəaliyyət tətbiqi terminşünaslıq çərçivəsindən kənara çıxmamışdır. Belə ki, 90-cı illərə qədər və müstəqillik illərində hüquq üzrə terminoqrafik işlər mütəmadiyyən həyata keçirilmiş və bir sıra lüğətlər hazırlanmışdır. Yalnız 2000-ci illərdən etibarən hüquq sahəsi üzrə bir sıra dilçilik

məsələləri tədqiqata cəlb edilmişdir. Qeyd edək ki, aparılan tədqiqatlar kəmiyyət etibarilə az olmaqla bərabər, hüquq dilinin leksik tərkibinin normativ hissəsini təşkil edən hüquq terminlərinin sadəcə dil-struktur cəhətdən təhlili ilə (G.T.Allahverdiyeva "Türk və Azərbaycan dillərində hüquq terminologiyasının formalaşması və inkişafı", M.Hacıyeva "Azərbaycan dilində hüquq terminlərinin linqvistik təhlili", M.F.Allahverdiyeva "Müasir rus dilində vergi hüququ terminlərinin semantik-struktur xüsusiyyətləri") məhdudlaşmamışdır. Belə ki, hüquq dili və onun müxtəlif janrlarını təqdim edən hüquqi mətnlər diskurs və mətn nəzəriyyəsi (A.A. Ağazadə "Müasir dövrdəki ingilisdilli hüquqi mətnlərin diskursiv xüsusiyyətləri (məhkəmə sənədlərinin materialları əsasında)"), tərcümə nəzəriyyəsi (V.S.Həsənova "Rus hüquq terminlərinin Azərbaycan dilinə tərcüməsi problemləri") və dilin üslubiyyatı (S.R. Əliyeva "Azərbaycan məhkəmə sənədlərinin dili") nöqteyi-nəzərindən araşdırılmışdır. Qeyd etmək lazımdır ki, bu tədqiqat işlərində hüquq dilinin leksik-terminoloji layının təhlil xüsusiyyətlərini linqvosentrik və antroposentrik yanaşmalar nöqteyi-nəzərdən 2 qrupa bölmək olar. Antroposentrik yanaşma nöqteyi-nəzərdən ingilisdilli hüquqi mətnlərin koqnitiv-diskursiv və kommunikativ-praqmatik təhlili məhkəmə diskursu çərçivəsində aparılmışdır. Koqnitiv dilçiliyin yaranması ilə insanın dildəki rolunun I dərəcəli əhəmiyyətinin dərk edilməsi, yəni insanın hazır şəkildə mənanı ötürən tərəf deyil, məhz kommunikasiya prosesində fikri formalaşdıran tərəf olması yanaşmasından çıxış edərək, xüsusilə hüquqi diskursda birbaşa şəkildə ifadə oluna bilməyən biliklərin kodlaşdırılması zamanı metaforalardan istifadə məsələsi təhlil edilmişdir. Tədqiqatda yurisprudensiya (hüquq elmi) terminləri sırasına daxil olan doktrinal metaforaların təhlili xüsusi maraq kəsb edir.

Linqvosentrik yanaşma nöqteyi-nəzərdən isə HT ilə bağlı araşdırmalar funksional-üslubi və struktur-semantik aspektdən aparılmışdır. Rəsmi-işgüzar üslubun tərkib hissəsi kimi məhkəmə sənədlərinin dilinin leksik və qrammatik xüsusiyyətlərinin tədqiqində diqqəti cəlb edən məqam məhkəmə terminlərinin morfoloji

xüsusiyyətləri ilə bağlıdır. Azərbaycan dilinin, eləcə də müqayisəli şəkildə Azərbaycan və türk dilinin hüquq terminologiyasının əsasən struktur-semantik aspektdən təhlili ilə bağlı tədqiqatlarda isə hüquq terminologiyasının formalaşma və təşəkkülü məsələsi tarixi terminşünaslıq nöqteyi-nəzərdən araşdırılmış, lakin başlıca olaraq terminyaranma prosesləri və üsulları, təsnifedici əlamətlərə görə HT-nin tematik qrupları, onların yaranmasında genetik mənbələr, HT-nin struktur-qrammatik xüsusiyyətləri nəzərdən keçirilmişdir. Hazırki dissertasiya işində isə hüquq terminologiyası daha geniş linqvistik təhlilə cəlb edilmişdir. Onomosioloji terminşünaslıq nöqteyi-nəzərdən müxtəlifsistemli fransız və Azərbaycan dillərində semantik, sintaktik, kalka üsulları ilə yanaşı, əvvəlki işlərdən fərqli olaraq terminyaradıcılığının morfoloji üsulunun kompleks şəkildə təhlili aparıldığı kimi, HT-nin semasioloji problemləri də təhlilə cəlb edilmişdir. Eləcə də hüquq terminologiyasının zənginləşməsində alınmaların rolundan bəhs edərkən hər iki dil üçün ortaq genetik mənbə olan ərəb dilindən terminlərin alınmasının sosial-tarixi səbəbləri də diqqətə çatdırılmışdır.

Qeyd etmək lazımdır ki, hüquq və dil qovşağında duran bir sıra maraqlı məqamlar da var ki, (işlənmə sferasının dəyişməsi nəticəsində HT-də baş verən semantik dəyişikliklər, xüsusilə qeyri-hüquqi diskursda onların metaforlaşması, hüquqi mediakonseptlərin meydana gəlməsi, hüquqi mətnlərdə hüquqşünaslar üçün aydınlaşdırılması və şərhi əlzəm olan semantik məzmun etibarilə qeyri-müəyyən hüquqi anlayışların varlığı, linqvistik eksperimentlər aparmaqla HT-nin sadə dil daşıyıcısı nöqteyi-nəzərdən real (psixolinqvistik) mənasının aşkarlanması və s.) Azərbaycan dilinin hüquq terminologiyası nöqteyi-nəzərindən hələ də tədqiq edilməmiş və ya qismən nəzərdən keçirilmişdir.

**Tədqiqatın obyekti.** Azərbaycan və fransız dilləri materiallarına əsaslanmaqla linqvistik təhlilini apardığımız HT tədqiqatın obyektini təşkil edir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmeti HT-nin formalaşma yollarının və linqvistik xüsusiyyətlərinin təhlilidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas

məqsədi müvafiq dillərdə HT-nin struktur, leksik-semantik, funksional-semantik və linqvopraqmatik xüsusiyyətlərini tədqiq etməkdir. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilir:

-HT-nin linqvistik təhlilində terminin aşkarlanma mühitlərinin, yəni qeyd olunma və işlənmə sferasının rolunu müəyyənləşdirmək;

-HT-nin semantik xüsusiyyətlərinə görə tipoloji təsnifatını vermək;

-hüquq terminologiyasında çoxmənalılıq, sinonimlik, omonimlik və antonimlik kimi semantik proseslərin rolunu aşkarlamaq;

-HT-nin müvafiq dillərdə dildaxili imkanlar hesabına yaranma yollarını müəyyənləşdirmək;

-HT-nin müvafiq dillərdə alınma mənbələrinin dövrləşdirilməsi baxımından tarixi aspektini və alınma üsullarını araşdırmaq;

-Alınma HT-nin fonetik, qrafik və semantik nöqteyi-nəzərdən mənimsənilmə hallarını araşdırmaq.

**Tədqiqatın metodları.** Dissertasiyada qarşıya qoyulmuş məqsədə çatmaq üçün tədqiqatın əsas metodu olan təsviri metoddan, müqayisəli-tutuşdurma metodundan, definitiv təhlildən və HT-nin strukturunun komponentli təhlili kimi üsullardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

-HT-nin linqvistik təhlilini dil-struktur, kommunikativ-praqmatik və funksional-semantik aspektləri nəzərdən keçirməklə aparmaq məqsədəuyğundur. Xüsusilə HT-nin kommunikativ-praqmatik və funksional xüsusiyyətləri tələb edir ki, onlar işlənmə sferasında tədqiq edilsin.

-HT rolunda ən müxtəlif sözlər, hətta sadə dil daşıyıcısına məxsus sözlər belə, çıxış edə bilər, bir şərtlə ki, bu sözlər müəyyən hüquqi diskurs çərçivəsində xüsusi hüquqi təyinata malik olsun. Məhz hüquq diskursu xüsusi funksiya daşımayan adi sözün terminoloji mənasını aktuallaşdıra bilir.

-HT-nin leksik-semantik xüsusiyyətlərinin bir qisminin təhlilində onların aşkarlanma mühitlərini fərqləndirmək və xüsusilə işlənmə sferasının təbiətini nəzərə almaq lazımdır.

-Hüquqi anlayış və bilikləri ötürmə vasitəsi olaraq qəbul edilən hüquq dilinin lakonikliyi imkan verir ki, hüquq terminoloji layında dildə qənaət prinsipindən istifadə etməklə dil-struktur cəhətdən özünəməxsus sintaktik strukturlu dil konstruksiyaları, həm də geniş informasiyavericilik qabiliyyətinə malik koqnitiv funksiyalı terminlər yaransın.

-Hüququn özünün dəqiqliyi aspektindən çıxış etdikdə dil-struktur baxımından böyük informasiya yükünü dəqiq ötürmək məqsədilə çoxkomponentli mürəkkəb vahidlər yaranır. Eləcə də hüquqi hadisə və faktların düzgün qiymətləndirilməsi və hüquqi tənzimləmədə yanlışlığa yol verilməməsi məqsədilə funksional-semantik planda ümumişlək sözün semantik strukturunun dəqiqləşdirilməsi ilə nəticələnən, lakin adi şüurda öz nominativ mənası ilə dərk edilən HT yaranır. Hər iki fikrə əsasən hüquq dilinin lakonikliyi və dəqiqliyi bir-biri ilə əks olan dil faktlarını meydana gətirir. Bu baxımdan hüquq dili ümumi ədəbi dilin özünəməxsus funksional fərqliliyə malik olan bir alt dili kimi ayrılıqda tədqiq edilməyə layiqdir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan və fransız dillərində hüquq terminologiyasının linqvistik xüsusiyyətlərinin təsviri və müqayisəli aspektdə tədqiqi, HT-nin semantik xüsusiyyətlərinə görə təsnifinin və leksik-semantik xüsusiyyətlərinin müəyyənləşdirilməsinin onun qeydə alınma sferası ilə yanaşı, ixtisas və qeyri-ixtisas olaraq fərqləndirilən işlənmə sferasının təbiəti də nəzərə alınmaqla aparılması, eləcə də HT yaradıcılığında hər bir dilin daxili imkanlarından istifadənin özünəməxsus xüsusiyyətlərinin aşkarlanması və HT-nin yaranmasında ekstralinqvistik amillərin təsiri, xüsusilə bu təsir nəticəsində hər bir milli dildə hüquq terminoloji bazasında alınmaların mənbəyində özünü göstərən fərqli xüsusiyyətlərin tarixi-mədəni faktlara əsaslanmaqla təhlili işin elmi yeniliyini təşkil edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Hər bir milli dildə istifadə edilən daxili söz yaradıcılığı imkanlarının hüquq termini yaratma potensialı, bu sahədə terminyaratma üsullarının sözün struktur-dil və anlayış-məna aspektlərindən təhlili baxımından

özünəməxsusluğunun aşkarlanması terminologiyanın inkişaf xüsusiyyətlərinin öyrənilməsində nəzəri əhəmiyyət daşıyır. İşin praktik əhəmiyyəti ondadır ki, tədqiqatın materiallarından, xüsusilə Azərbaycan dilində ikidilli və izahlı hüquq lüğətlərinin hazırlanmasında, dərs vəsaitlərinin yazılmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri haqqında elmi konfranslarda məruzələr edilmişdir. Tədqiqatın əsas məzmununu əhatə edən 11 məqalə və tezis çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya mövzusu Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Hind-Avropa dilləri, Nəzəri dilçilik və Müasir Azərbaycan dili şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Giriş 7 səhifə, I fəsil 31 səhifə, II fəsil 31 səhifə, III fəsil 55 səhifə, Nəticə 4 səhifə, istifadə olunmuş ədəbiyyat siyahısı 19 səhifə, əlavələr 8 səhifə, ixtisarlar 1 səhifə, ümumi həcmi 159 səhifə – 238, 382 işarə.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiyanın **"Terminologiya qərb və Azərbaycan dilçiliyi nöqteyi-nəzərindən"** adlı I fəsli üç paraqrafdan ibarətdir.

**"Terminologiyanın diaxronik aspekti və terminoloji məktəblər. Vyana və Sovet terminologiya məktəblərinə qısa baxış"** adlı I paraqrafda Vyana terminologiya məktəbinin əsas ideyasını təşkil edən Ümumi Terminologiya Nəzəriyyəsinin mahiyyətindən, eləcə də texniki terminologiyanın unifikasiyası və standartlaşdırılması problemi ilə bağlı onomasioloji yanaşmadan

çıxış edən D.Lottenin təməlini qoyduğu sovet terminşünaslığının bir neçə əsas mərhələsindən bəhs edilir.

I paraqrafın **"Azərbaycan milli terminologiyasının inkişafı tarixindən (sovet hakimiyyəti illərində və müstəqillik illərindən sonra)"** adlı I bəndində sovet terminoloji məktəbinin inkişafı ilə paralel təşəkkül edən milli terminologiyamızın tarixinə qısa nəzər yetirilir. Qeyd edilir ki, Azərbaycan terminşünaslıq elmi, xüsusilə elmi terminologiyanın daha gec, təxminən XVIII əsrdən etibarən yaranması[1], elmi dilin əvvəllər ərəb-fars, sonralar rus-Avropa mənbəyinə əsaslanması və bu mənbələrin milliləşdirilməsi ilə bağlı olaraq özünəməxsus inkişaf xəttinə malik olmuşdur. Bu baxımdan, tətbiqi terminşünaslıq problemlərinin araşdırılması, eləcə də çoxsaylı terminoqrafik fəaliyyətlərin həyata keçirilməsi ilə yanaşı, nəzəri terminşünaslıq nöqteyi-nəzərindən, xüsusilə müstəqillik illərində müxtəlif sahə terminologiyaları ilə bağlı onomosioloji, semasioloji terminşünaslıq istiqamətində, eləcə də ümumtürk və milli qaynaqlar dövrləşdirilməklə həm Azərbaycan dili terminologiyasının tarixi, həm də müxtəlif sahə terminologiyalarının formalaşma və inkişafı tarixi ilə bağlı tarixi terminşünaslıq istiqamətində bir çox tədqiqat işləri aparılmışdır.

I paraqrafın "**Kanada məktəbi yeni yaranmış terminoloji məktəb kimi**" adlı II bəndində yaranma səbəblərinə görə ikidillilik ilə bağlı sosial-siyasi və iqtisadi həyatda kommunikasiya, birgə yaşayış və özünü ana dilində ifadə edə bilmək kimi problemləri tərcümə vasitəsilə həll edərək terminologiya üzrə fəaliyyət göstərən və standart dilin yaradılması problemlərinin həll edilməsi məqsədilə yaradılan ənənəvi terminologiya məktəblərindən fərqlənən Kanada terminoloji məktəbindən bəhs edilir.

**"Terminologiya məsələsində yeni yanaşmalar"** adlı II paraqraf üç bənddən ibarətdir. Terminologiyanın sistemliliyi və təkmənalılığı, terminlərin bütün dillərdə ekvivalentliliyi, müəyyən sahə üzrə konseptin dəqiq və universal olması və onların adlarının bütün dillərdə formal olaraq təsviri, beləliklə də beynəlxalq

---

[1] Dəmirçizadə, Ə. Azərbaycan ədəbi dilinin tarixi. / Ə.Dəmirçizadə. – Bakı: Maarif, – 1979. – s. 250-258

terminologiyanın təşkili kimi fikirləri reallığa uymayan, xəyalpərəst mövqe olaraq dəyərləndirən müasir qərb dilçiləri artıq terminologiyada tənqidi yanaşmalarla və yeni nəzəri fikirlərlə çıxış edərək terminoloji leksikanın təbii mühitlərində tədqiq olunması fikrini irəli sürür və sosiokoqnitivst terminologiya, sosioterminologiya kimi anlayışları aktuallaşdırırlar.

I fəslin III paraqrafında **"Terminologiyada xüsusi dil və xüsusi diskurs məsələsi"**ndən bəhs edilir. Terminologiya xüsusi bilikləri emal edən və ötürən xüsusi diskursun və bu informasiyaları işarələməyə və kommunikasiyasına xidmət edən xüsusi dilin obyekti kimi nəzərdən keçirlir. Beləliklə, terrminologiyanın ümumi dildə tutduğu mövqeni və onun problemlərini araşdırmaq üçün mütləq şəkildə onun təbii mühitinin araşdırılması vacib hesab edilir. Məhz bu təbii mühit – xüsusi diskurs terminologiyanın obyekti olan terminin dil işarəsi kimi linqvistik, koqnitiv və kommunikativ-praqmatik cəhətlərini aşkarlamağa imkan verəcək.

III paraqrafın I bəndi **"Hüquq dili yurilinqvistikanın mərkəzi anlayışı kimi"** adlanır. Xüsusi dilin təbii dilin potensialından asılı olduğunu və funksional fərqlilik qazanmaqla onun bir alt qrupu kimi formalaşdığını nəzərə alaraq iki elmin – hüquq və dilçiliyin qovşağında dayanan *yurilinqvistikanın mərkəzi anlayışı*[2] olan hüquq dilinin də təbii dil çərçivəsində inkişaf edən və öz metadillərinə malik olan xüsusi dil olduğunu söyləmək mümkündür[3]. Hüquq dili ümumi ədəbi dilin bütün linqvistik səviyyələrindən, xüsusilə də leksik səviyyədə ümumişlək leksik bazadan geniş şəkildə istifadə etməsinə baxmayaraq, məzmunu etibarilə təbii dildən fərqlənir və sintaktik, stilistik, semantik və leksik elementləri ilə səciyyəvi və tamamilə dəqiq bir diskursun dilinə çevrilir.

**"Hüquq terminlərininin leksik-semantik xüsusiyyətləri"** adlı II fəsil iki paraqrafdan ibarətdir. **"Hüquq termininin semantik xüsusiyyətlərinə görə təsnifi"** adlı I paraqrafda semantik

---

[2]Galushkina, K. Jurilinguistique: du langage spécialisé vers la linguistique de spécialité // Romanica Cracoviensia, – 2011. vol. 11, – p.150-152

[3]Wroblewski, J. Les langages juridiques : une typologie // Droit et société, Le discours juridique. Langage,signification et valeurs, – n°8, 1988. – n°8, – p.14-15

xüsusyyətlərinə görə HT-nin dörd tipindən bəhs edilir. 1) Texniki dəqiqliyə, konsept və termin arasında sıx əlaqəyə (təkmənalılıq) malik olması və anlayışın gündəlik həyatda ekvivalentinin olmaması səbəbilə metaforlaşması və determinləşməsi əsasən mümkün olmayan və beləcə, hüquq sisteminin xüsusi elementlərinə çevrilən *la cassation – kassasiya; qərardad* və s. kimi sırf HT; 2) Hüququn baza anlayışlarını təşkil etməklə yanaşı, ümumi dilin də işlək üzvləri olan *le droit – hüquq; la justice - ədalət* kimi hüququn açar sözləri; 3) *cavab – la réponse; ərizə - la requête* kimi hüquqi mətnlərdə mütəxəssisin şüurlu müdaxiləsi nəticəsində əlavə, xüsusi təyinatlarla dəqiqləşdirilən, yəni şərti məna verilməklə terminoloji məna kəsb etmiş və hüquq termini statusu qazanmış ümumişlək sözlər; 4) Hüquq terminoloji lüğətində mənası heç bir şəkildə dəyişməyən ümumişlək sözlər və aid olduğu digər terminoloji sahəyə məxsus mənaları ilə çıxış edərək "texniki terminlər"[4] (*abort – l'avortement* (tibb)) kimi səciyyələndirilən terminlər. Sonuncu qrup *"avto müəyyən edilmiş"*[5] HT-dir.

II fəslin II paraqrafı **"Hüquq terminlərinin leksik-semantik xüsusiyyətləri: sinonimlik, çoxmənalılıq, omonimlik və antonimlik"** adlanır.

***Sinonimlik.*** Yeni yanaşmalara görə terminoloji sinonimiya funksional-praqmatik perspektivdən araşdırılır. Bu, terminin ixtisaslaşma səviyyəsinə görə fərqlənən yazılı və şifahi mətn daxilində kommunikativ-praqmatik aspektdən gözdən keçirilməsidir. Terminologiyada mütləq və nisbi sinonimlikdən bəhs edilir. *"Əgər sinonimlərdə məna incəliyi və üslubi xüsusiyyətləri əsas əlamət kimi qəbul ediriksə onda mütləq eynimənalı kimi işlənən mütləq sinonimlər yoxdur. Bu mənada "mütləq sinonim" terminini "dublet" termini ilə əvəz etmək olar"*[6] fikrindən çıxış edərək, hüquq sahəsində dilin həm qeyd olunma, həm də işlənmə sferasında rastlanan

---

[4]Əliyeva, S.R. Azərbaycan məhkəmə sənədlərinin dili: / Filologiya elmləri namizədi ... dissertasiya / – Bakı, 2002. – 123 s.
[5]Humbley, J. La legitimation de la terminologie // Semiotiques, – 1996. – pp. 122
[6]Həsənov, H.Ə. Müasir Azərbaycan dilinin leksikası / H.Ə.Həsənov. – Bakı: Maarif, – 1988. – s.77

dubletliliyi - 1) Abreviaturlar və onların bütöv adlandırılma formaları; 2) Tam və qısa adlandırma formaları; 3) Müxtəlif söz birləşmələri ilə ifadə edilən dubletlər; 4) Alınma və beynəlmiləl HT və onların milli dillərdəki qarşılıqları; 5) Hüquqla bağlı mətnin ixtisaslaşma dərəcəsindən asılı olaraq istifadə edilən dubletlər olaraq beş hissəyə bölmək olar. Sonuncu xüsusilə diqqət cəlb edir: anqlo-sakson hüquq sisteminə aid olan *the hearsay evidence* (başqasının sözlərinə əsaslanan şahidlik) anlayışının qanunvericilik mətnində *özgənin sözlərindən verilən məlumat*[7], akademik mətndə isə *özgənin sözlərinə əsaslanan ifadə*[8] şəklində variantlarına rast gəlirik. Lakin hüquq sahəsində, dubletliklə yanaşı, xüsusən də nisbi sinonimlik hadisəsinin daha çox kontekst daxilində təsadüf etməsi diqqəti cəlb edir. Bu da onu göstərir ki, HT-nin sinonimləşməsi nitqin praqmatik şərtləri daxilində baş verir. Yəni bu terminlər informasiyanı ötürənin məlumatla bağlı peşəkarlığı, məlumatı göndərmə niyyəti və məqsədi və məlumatın yönləndirildiyi auditoriyanın bilik səviyyəsi və aidiyyatı sahə üzrə professionallığı şərtləri daxilində müəyyən mətn çərçivəsində sinonimləşə bilir. Bu zaman hətta məna çalarlığına malik, üslubi-funksional fərqlilik göstərən nisbi sinonimlərin məna yükünün bərabərləşdirilməsi və ya məna çalarlığının aradan qaldırılması hallarına da təsadüf etmək olar.

***Çoxmənalılıq.*** Dildə yaranan hər yeni anlayışı yeni vahidlərlə ifadə etməyin qeyri-mümkünlüyü hüququn müxtəlif sahələrində yaranan daxili çoxmənalılığın və xüsusilə əsas əlamətə istinadən metonimləşmə əsasında yaranmış *"kateqorial çoxmənalılığ"ın*[9] yaranmasına (*la Cour* – 1) məhkəmə, palata (məkan) 2) proses; 3) prosesi icra edən hakimlər qrupu) imkan verir. Belə çoxmənalılığın aradan qaldırılması isə terminin mətn daxilində istifadəsi ilə

---

[7]Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi: [Elektron resurs] / URL: http://www.e-qanun.az/code/14–mad.22

[8]Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi üzrə təlimat: [Elektron resurs] / Ədalətli, məhkəmə araşdırması (cinayət hüququ aspekti) URL: https://www.echr.coe.int (Case-law – Case-law analysis – Case-law guides), –s.53

[9]Даниленко, В.П. Русская терминология: опыт лингвистического описания / В.П.Даниленко. – Москва: Наука, –1977. –69с.

mümkündür.

***Omonimlik.*** Hüquq terminologiyasında ümumişlək sözlə terminləşən söz arasında (*la récompence* 1) mükafat 2) (hüq.) zərərin əvəzinin ödənilməsi)), eləcə də yalnız terminoloji qatda (*boşluq* – 1) (xalça.) – xalçanın boş toxunması anlamında 2) (anat.) – bədəndə, ayrı-ayrı üzvlərin yerləşdiyi yer 3) (hüq.) hər hansı bir hüquq qaydasının və ya qanunun münasibəti tənzimləməməsi və ya mövcud olmaması)) yaranan omonimlər müxtəlif semantik sahələrə aid olduqlarından onların fərqli kontekstlərdə semantik cəhətdən toqquşması mümkün deyil və onların mövcudluğu mətnin düzgün başa düşülməsinə maneə təşkil etmir.

***Antonimlik.*** Hüquq terminologiyasında semantik cəhətdən 1) eyni bir əlamətin fərqli dərəcə və mərhələsini ifadə etməsi və qütblər arasındakı aralıq mövqe ifadə edən anlayışı ehtiva etməsi baxımından kontrar (əməlin cinayət hesab edilməsindəki ictimai təhlükəlilik əlamətinin aşağı və yuxarı həddinə görə cinayət *böyük ictimai təhlükə törətməyən cinayət, az ağır cinayət, ağır cinayət və xüsusilə ağır cinayət* şəklində təsnifləndirilir); 2) bir-birini qarşılıqlı olaraq cins anlayışına qədər tamamlayan, xarakter etibarilə yalnız hədd səviyyədə duran anlayışları ehtiva etməklə yanaşı, aralıq mövqe ifadə edən anlayışlardan məhrum komplementar (*açıq məhkəmə iclası-qapalı məhkəmə iclası – le procès public - ~ à huis clos*); 3) *"eyni bir "obyekt"in (fəaliyyətin, şeyin,...) diametrik qaydada qarşı-qarşıya duran iştirakçıları nöqteyi-nəzərdən təsvir edilməsi faktı"nı*[10] ifadə edən konversiv (*xəsarət yetirmək-xəsarət almaq*); 4) iki fərqli situasiya, lakin tək bir iştirakçıya malik olmaqla hadisənin, hərəkətin, vəziyyətin əks istiqamətliliyini ifadə edən və IV tip kimi çıxış edən antonimlik (*həbs etmək – azad etmək*) və 5) *Daxili antonimlik kimi səciyyələndirilən xüsusi növ antonimlik - enantiosemiya*[11] (*louer* (icarəyə vermək – icarəyə götürmək) mövcuddur ki, bunlar arasında

---

[10]Cuciuc, N. L`Antonymicité privative dans le français juridique: [Ressource electronique] / Buletinul Stiintific al Universitatii Mihail Kogalniceanu, – 1, – 2010, – pp.80-95.URL: https://core.ac.uk/download/pdf/6820726.pdf

[11] Новиков, Л.А. Антонимия в русском языке / Л.А.Новиков. – Москва: Изд-во МГУ, – 1973. – с.182

komplementar və konversiv antonimlik üstünlük təşkil edir.

Dissertasiyanın III fəsli **"Hüquq terminlərinin yaranma yolları və mənbələri"** adlanır və altı paraqrafdan ibarətdir. I paraqraf **"Hüquq terminlərinin yaranmasında leksik-semantik üsulun rolu"** adlanır. HT-nin yaranmasında ümumişlək sözün transpozisionallaşması zamanı məna dəyişməsinin aşağıdakı növlərini nəzərdən keçirmək olar: ***1)Ümumişlək sözün semantik komponentlərinə (şərti) əlamət-sem əlavə etmə nəticəsində dəqiqləşdirmə yolu ilə terminləşməsi.*** Sahə mütəxəssisinin şüurlu müdaxiləsi nəticəsində adi şüurda nominativ mənası ilə dərk edilən dil vahidinin semantik strukturu əvvəlki siqnifikativ mənasının əlamətlərini daxil etməklə bərabər, yeni əlamətlərlə dəqiq və qəti şəkildə qurulur və bu zaman söz denotativ mənasını dəyişmir. Məs., ***işçi***[12] sözünün hər hansı bir müəssisədə, idarədə xidmət edən, çalışan adam əlamətlərinə əsasən minilmallaşdırılma nəticəsində formalaşan leksikoqrafik mənası qanunvericilikdə[13] müvafiq iş yerində əmək haqqının ödənilməsi və işəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi imzalaması kimi əlamətlərlə dəqiqləşdirilərək terminoloji mahiyyət kəsb etmişdir.

***2)Ümumişlək sözün mənasının dəyişərək xüsusiləşməsi yolu ilə terminləşməsi.*** Sözün əsas semantik komponentə istinadən mənasının dəyişərək xüsusiləşməsi hadisəsini dilin diaxron və sinxron vəziyyətində müşahidə etmək olar. Düşüncə, ifadə edilmiş fikir, hiss mənalarında işlənən latın mənşəli ***sententia*** sözündən alınmış ***la sentence*** ümumişlək sözü geniş anlamda bilik və təcrübə nəticəsində əldə edilmiş həqiqətlə bağlı fikri dəqiq və doqmatik qaydada ifadə edən düşüncə, maksim mənasında, həmçinin tanrının insanlar və günahkarlar haqqındakı hökmü mənasında işlənmişdir. Bu məna kanonik hüquqda hökm mənası kimi xüsusiləşmiş və fransız hüququnda köhnəlmiş söz kimi cinayət işi üzrə məhkəmə

---

[12] Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] / red. Ə.Orucov. – Bakı: Şərq-Qərb,– c.2. – 2006. – s.595

[13] Azərbaycan Respublikasının Əmək Məcəlləsi: [Elektron resurs] / http://www.e-qanun.az/code/7– mad.3

hökmü mənasında işlənmişdir. Hal-hazırda bu sözün mənası daha da xüsusiləşərək arbitraj məhkəməsinin çıxardığı qərar mənasında işlənir.

*3)**Ümumişlək sözün və digər sahə terminlərinin metaforikləşmə nəticəsində terminləşməsi.*** Məna köçürülməsinin mahiyyətinin əsasında oxşarlıq, bənzətmə, müqayisə, əlaqə əsasında, dildə qənaət prinsipinə də əsaslanmaqla adı olmayan anlayışa ad verilməsi durur. Morfoloji təhlil zamanı isim (***le corps** du délai* (cinayət tərkibi), ***baxış*** *– məhkəmə~*), sifət (*le mariage* ***blanc*** (saxta nikah), ***qara*** *bazar*) və feillərin (*saisir* (tutmaq, yapışmaq) -~ *la justice* (məhkəməyə təqdim etmək), *şikayət vermək*) metaforlaşması nəticəsində HT-nin yarandığını görürük.

Metaforikləşmə təkcə söz səviyyəsində deyil, həmçinin söz birləşməsi (*təmiz əllər,vénin de suspicion* (şübhə zəhəri)) və cümlə səviyyəsində (*Le juge est la bouche de la loi* (Hakim qanunun ağzıdır)) də baş verə bilər. Hüquqi prinsipləri və doktrinaları ifadə edən belə terminlər əslində gizli motivləşmiş terminlərdir. Komponentlərindən hər birinin mənası başa düşülür, lakin daxili forması aydın deyildir. Belə metaforik birləşmələr vasitəsilə informasiya ötürənin nə demək istədiyi yalnız diskursiv təhlil zamanı mümkün ola bilər. Məs., Amerika məhkəmə qərarlarından əldə edilmiş *zəhərli ağacın meyvələri* və ya *zəhərli meyvə* hüquq doktrinası əsasında AİHK-nin işgəncə əleyhinə olan 3-cü maddəsi şərh olunur. Belə ki, *zəhərli meyvə* 3-cü maddəyə zidd olaraq işgəncə ilə əldə edilmiş dəlillərdir ki, bu da bütün mühakimə prosesinin ədalətsiz olmasına şərait yaradır. Bu prinsipin əsasında əgər ağac zəhərlidirsə, ondan əldə edilən bar da zəhərlidir ideyası durur.

II paraqraf **"Hüquq terminlərinin yaranmasında morfoloji üsulun rolu: affiksləşmə (suffiksləşmə, prefiksləşmə, parasintetik törəmə, transfiksləşmə), apofonasiya, konversiya və morfoloji qoşulma"** adlanır. Ümumiyyətlə, *sözyaradıcılığının təkcə morfoloji üsulundan deyil, kompleks şəklində morfoloji üsullarından .... bəhs etmək doğru olardı. Bu üsulların morfoloji üsulun digər üsullarla kombinə edilmiş formaları olaraq qəbul edilməsinin səbəbi kimi onların morfemlərin iştirakı ilə formalaşması və müasir dilçilikdə bir*

*çox dillərdə morfoloji üsulun bir sıra keyfiyyətlərinin daşıyıcısı kimi çıxış etməsi göstərilir*[14]. Terminoloji leksika yaradıcılığında isə bu üsullardan, əsasən, affiksləşmə, apofonasiya, konversiya və morfoloji qoşulma üsulları iştirak edir.

Bəzi mübahisəli törəmə qaydaları istisna olmaqla hüquq terminologiyasında affiksləşmə dedikdə, əsasən, müəyyən məna qruplarına bölünmüş suffiks, prefiks və ya deformativ tipli prepozitiv derivasiya elementlərinin söz kökünə (əsasa) artırılması ilə baş verən sözyaradıcılığı prosesi nəzərdə tutulur.

***Suffiksləşmə.*** Əvvəla, sözün leksik-qrammatik kateqoriyasını dəyişdirmək funksiyasına görə hər iki dilin hüquq terminologiyasında suffiksləri əsasən: 1) adlardan və feillərdən ad düzəldən suffikslər; 2) adlardan feil düzəldən suffikslər şəklində qruplaşdırmaq olar. Bu zaman suffikslərin məna növləri (***-lıq***$^4$ şəkilçisi şəxsə mənsubiyyəti ifadə etməklə yanaşı *(məhkumluq)*, həm də məkan bildirən terminlər düzəldir *(prokurorluq)*) və cins kateqoriyası ilə bağlı funksional-qrammatik istiqaməti (***le châtiment*** *(k.c.)* (islah etmə məqsədilə tətbiq edilən ciddi cəza), ***la connaissance*** *(q.c.)* (işə baxılma)), mənşəyi (Az. d-də əsasən milli və ərəb-fars mənşəli şəkilçilər, fr. d-də isə latın-yunan mənşəli suffikslər) və məhsuldarlığı (Az. d-də ***-lıq***$^4$ (29,2%), ***-xor, -deh, -gir*** (0,4%) şəkilçiləri; fr. d-də ***ion, -tion, -sion, -isation*** (6,36%) və ***-el/-elle,-al/-ale*** (6,81%), ***-ie*** (0,4%) suffiksləri) kimi fərqli aspektləri diqqətə alınmalıdır.

***Prefiksləşmə.*** Bu zaman sözlərin kateqorial xüsusiyyəti və söz əsasının formal cəhəti dəyişmir. Fransız dilində bəzi prefikslərdə isə mənşəyinin xarakteri və söz əsasının ilkin səsi ilə bağlı bəzi fonetik və qrafik variantlar (**dé-, dés-**, **dis-** (*défiscaliser* (bir daha vergi qoymamaq)) mövcuddur.

***Parasintetik törəmə.*** Prefiks və suffiksin eyni anda istifadəsi və əsasən affikslərdən heç birinin kökə təkbaşına əlavə edilməməsi kimi nəzərdən keçirilən *parasintetik törəmə*[15] fransız dili üçün

---

[14]Nəsirova, R.M.Müxtəlifsistemli dillərdə morfoloji üsulların tipologiyası: / Filologiya üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı, 2017. – s.20
[15]Grevis, M. Le bon usage / M.Grevis. –Paris: Ducolot, – 1993. – s.233

səciyyəvidir. Məs., *emprisonner* (həbs etmək) feili *prison* (məhbus) kökündən yaranmışdır. Nə *prisonner* nə də *emprison* törəmələri müstəqil mövcud deyil. Bu törəməyə suffiksləşmə nəticəsində yaranmış əsaslara daha sonra prefiksin əlavə edilməsi qaydası da aid edilir[16]. Məs., *centre* (mərkəz) kökündən yaranmış *central (mərkəzi), centralisation (mərkəzləşdirmə)* törəmələrindən daha sonra *décentralisation* (yerli orqanların avtonomlaşması) termini yaranmışdır. Bu pilləli daha doğrusu, mərhələli törəmədir ki, bu da fransız dilində təsadüfi deyil, əvvəlcədən müəyyən edilmiş qaydalara əsasən müəyyən ardıcıllığa riayət etməklə baş verir.

***Transfiksləşmə.*** *Qətl, qatil, hökm, hakim* kimi Azərbaycan dilindəki baza HT-nin sami dillərində dəyişməyən samitlərdən ibarət kök və dəyişən sxemdən, *yəni kəsik-kəsik saitlərdən ibarət və samit köklər arasında lay-lay yerləşərək söz-formanı əmələ gətirən transfikslərdən təşkil olunmuş ikimorflu söz-formalar olduğunu və kök və transfikslərin bir-birinə qarşılıqlı şəkildə nüfuz edərək aqlütinativ tipli affiksləşmə - transfiksləşmə*[17] əmələ gətirdiyini görmək olar. Məs., *QATLUN* قتل (Qətl), *HUKMUN*حكم (hökm) kimi ismi-məsdərlər I bab feili olan *qatələ, hakəmə* feillərinin kök hərflərindən fə`lun və fu`lun modeli üzrə düzəlmişdir. I kök hərflər müvafiq olaraq fəthə və ötrə, ikincilər sükun, üçüncülər isə tənvin-dammə qəbul edib.

***Apofonasoya.*** Samit və saitlərin əvəzlənməsi, vurğunun yerdəyişməsi kimi morfem daxilindəki fonematik dəyişikliklər apofonasiya hadisəsi adlanır. Fonoloji amillərdən asılı olan sait apofonasiyası – ablaut və umlaut (daxili fleksiyanın növləri) söz kökünün saitlərinə təsir göstərərək onların əvəzlənməsi kimi morfonoloji mahiyyət daşıyır və əsasən sözün forma və məzmununun dəyişməsi baximindan ikili – söz-forma və yeni söz düzəltmə funksiyasına malikdir ki, termin yaradıcılığında II funksiya bizim üçün maraq kəsb edir.

---

[16]Андреева, В.Н. Лексикология современного французского языка /В.Н.Андреева. –Москва: Учпедгиз, – 1955. – с. 65

[17]Мельчук, И.А. О «внутренней флексии» в индоевропейских и семитских языках // Вопросы языкознания, – 1963. №4, – с. 27-40

Fransız dilində əks istiqamətli təsir nəticəsində kök vokalizminin dəyişikliyi, əsasən, suffiksləşmə və reqressiv törəmə ilə əlaqədardır. Məs., *-ible* suffiksi artırılmış *prévoir* (öngörmək) feilindən yaranmış *prévisible* (öngörülə bilən) sifətində oi>i, *avouer* (etiraf etmək) feilindən reqressiv törəmə yolu ilə düzəlmiş *aveu* (etiraf) ismində ou>eu əvəzlənməsini görmək olar. I halda əlavə edilən şəkilçinin incə saitinin söz kökündəki qalın saiti öz məxrəcinə kökləməsi ilə reqressiv sait harmonizmi və ya umlautlaşma hadisəsi müşahidə edilir ki, bunun əsasında vurğunun yerdəyişməsi durur. Belə ki, vurğu son hecaya düşdüyündən suffiks vurğunu əldə etməklə güclənmiş və reqressiv yönümlü assimilyasiyaya səbəb olmuşdur. II halda da saitin vurğulu vəziyyətə düşməsi və I halda olduğu kimi arxa saitin ön sıra saiti ilə [wa>i], [u>ø] əvəzlənməsi müşahidə edilir.

***Konversiya.*** Bu, söz əsasının fonetik və morfoloji tərkibini dəyişmədən başqa nitq hissəsinə keçməsidir. Sintaktik mühitdə formalaşma və başqa nitq hissəsinə keçməklə II sintaktik funksiya əldə etmə və ilkin sözlə leksik məna etibarilə omonimlik təşkil etmə konversiyanı xarakterizə edən əlamətlərdir. Konversiyanın leksik-semantik, morfoloji-sintaktik, semantik-sintaktik kimi müxtəlif növləri mövcuddur.

Feili sifətlərin substantivləşməsinin, xüsusilə morfoloji əlamət sayılan artikllərin olduğu dillərdə geniş vüsət qazandığını qəbul edərsək, görərik ki, Azərbaycan dilində ərəb mənşəli *məhbus,* fransız dilində *le prononcé* kimi HT artikl vasitəsilə feili sifətin substantivləşməsi nəticəsində meydana gəlmişdir. *"Xalis olmayan törəmə vasitəsilə feili sifət sonluqları, -ant ...,-é... ilə bitən sözləri əmələ gətirən suffikslərə çevrilir"*[18] fikri və bu səbəblə də həmin suffiksləri sözdüzəldici formantlar siyahısında olması onu göstərir ki, fransız dilində feili sifətlərin həm keçdikləri nitq hissələrinin kateqorial əlamətlərini əldə etməsi və eləcə də sonluqların mənbə sozdə qrammatik məna ifadə etməsinə baxmayaraq, törəmələrdə sözduzəltmə səciyyəsinə malik olması morfoloji-sintaktik konversiya

---

[18]Kocourek, R. La langue française de la technique et de la science / R.Kocourek. – Wiesbaden: Brandstetter, – 1982, – p.88

sayəsində baş verir.

***Morfoloji qoşulma.*** Morfoloji qoşulma mürəkkəb söz yaradıcılığı üsulu kimi çıxış edir. Mürəkkəbləşmə ilə bağlı iki istiqamət mövcuddur. Bizim üçün *morfologiya və sintaksis arasında mürəkkəbləşmənin yerinin müəyyən edilməsi və morfologiya daxilində mürəkkəbləşmə ilə affiksləşmə, xüsusilə mürəkkəbləşmə ilə prefiksləşmə arasındakı sərhəddin müəyyənləşdirilməsi məqsədilə onların formalaşma qaydalarının nəzərdən keçirilməsi ilə bağlı II istiqamət*[19] maraq kəsb edir.

Hüquq terminologiyasında xüsusilə üstünlük təşkil edən NN və fransız dilindəki VN mürəkkəblərinin morfoloji və ya sintaktik yolla formalaşma xüsusiyyətlərinin aşkarlanması çətinlik yaradır. *Əslində VN mürəkkəblərində* (le porte-parole (mətbuat katibi)) *isimlə feil arasında determinantın olmaması və onlar arasında müxtəlif semantik əlaqələrin olması, eləcə də NN mürəkkəblərində* (ər-arvad; la donation-partage (miras qoyanın iradəsi üzrə sağlığında əvvəlcədən təyin edilmiş varisləri arasında gələcək mirasının paylaşdırılması)) *komponentlər arasında tabesizlik bağlayıcısının olmaması, digər bütün NN mürəkkəblərində* (l`assurance-vie (həyat sığortası)) *isə hiponimik şərhin olması kimi cəhətlər belə mürəkkəblərin formalaşmasının morfoloji xüsusiyyətləri olaraq göstərilir*[20].

Lakin HT-nin yaranmasında sintaktik üsulun rolu adlı bölmədə qeyd etdiyimiz kimi mürəkkəb hüquq terminlərinin (MHT) yaranmasında tarixi və psixoloji aspektlər, dildə qənaət prinsipi kimi amillər çərçivəsində sintaktik vahidlərin fonetik və semantik cəhətdən univerballaşması prosesini əsas götürərək mürəkkəb HT-nin formalaşmasında sintaktik üsula əsaslanmağa üstünlük veririk.

**“HT-nin yaranmasında sintaktik üsulun rolu”** adlı III paraqraf üç bənddən ibarətdir. I bənd **“Mürəkkəb hüquq terminlərinin struktur-semantik təhlili”** adlanır. *“Bir sıra dilçilərin fikrincə, mürəkkəb sözyaratma prosesi söz birləşməsinin*

---

[19]Villoing, F. Les mots composés VN du français: arguments en faveur d`une construction morphologique//Cahiers de Grammaire 28, – 2003. – p. 184.
[20]Villoing, F. French compounds//Probus, – 2012. Vol. 24, – p. 36

*özünəməxsus şəkildə bir sözə ixtisar edilməsidir, yəni söz birləşməsinin univerballaşdırılmasıdır"*[21]. Belə bir univerballaşma faktını *"atəşkəs"* terminində müşahidə etmək olar. *Atəş(i) kəs!* qeyri-müəyyən təsirlik halla ifadə edilmiş predikativ birləşmədən bir vurğu altında ifadə edilən və semantik bütövlüyə malik mürəkkəb *atəşkəs* sözü düzəlmişdir. Belə ki, *atəş(i) kəs!* əmrində real mənada odlu silahdan açılan atəşin kəsilməsindən bəhs edilirsə, yüksək mücərrədliyi ilə seçilən *atəşkəs* termininin semantikasında silahlı münaqişənin müvəqqəti dayandırılması anlamı ilə yanaşı, xüsusi mətn daxilində həmçinin yaranmış *müvəqqəti sülh* mənasını da görmək mümkündür. *"Tərəflər uzun sürən Dağlıq Qarabağ münaqişəsini dinclikla nizama salıb mövcud atəşkəsi möhkəm sülhə çevirmək əzmində olaraq... aşağıdakılar barədə öz üzərilərinə öhdəliklər götürürlər"*[22].

Söz birləşmələrindən əmələ gəlmiş MHT-nin yaranmasında digər başlıca səbəb isə dildə qənaətliliyə meylin olmasıdır. Bu zaman MHT-nin komponentlərinin mənasının itmədiyini və əsl mənadan uzaqlaşıb zəifləmədiyini görürük. V.Vinoqradovun fikrincə, belə mürəkkəb sözlərlə söz birləşmələri arasında *"funksional əlaqəliliyi və sinonimik münasibəti"* müəyyən etmək mümkündür *və xüsusilə belə "sinonimik paralellik" sözün geniş mənasında təyinedici sözlə birgə işlədilən isim birləşmələrində mövcuddur*[23]. *Le mal-jugé* (məhkəmənin yanlış qərarı) terminindən göründüyü kimi, bu qənaətlilik *un jugement mal rendu* (yanlış verilmiş qərar) parafrazasındakı təyin edilmiş ismin mürəkkəb söz daxilində keçmiş zaman feili sifət forması ilə daha yığcam şəkildə ifadə edilməsi ilə özünü göstərir.

---

[21]Маковей, Р.Г. Проблемы структурно-семантического и функционального соотношения компонентов сложных слов в сравнительном аспекте//– Харьков: Вестник ХНАДУ, – 2012. вып. 56, – с. 8.

[22]Abdullayev, E. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində / E.Abdullayev. – Bakı: Təhsil, – 2004. – s. 91

[23]Виноградов, В.В. Вопросы изучения словосочетаний//– Москва: Вопросы языкознания, –1954. №3, –с. 23

II bənd “**Hüquq termin-söz birləşmələrinin struktur-semantik xüsusiyyətləri**” adlanır. Anlayışın fərqləndirici əlamətlərini daşımaqla onu daha dəqiq ifadə edən və onun fərqli xüsusiyyətlərindən çıxış edərək klassifikasiya qrupunu yaratmağa imkan verən termin-söz birləşmələri (TB) vahid, lakin geniş və mürəkkəb anlayışı ifadə etməklə *“adlandırma bütünlüyünə”*[24] malikdir. Sabit leksik tərkibə malik TB sahə mətni daxilində stabil və dəyişməz şəkliylə təkrarlanır, lüğətlərdə müstəqil leksik vahid kimi qeyd olunur.

Hüquq termin-söz birləşmələrini (HTB) komponentlərinin leksik-semantik xüsusiyyətlərini qoruyub saxlaması nöqteyi-nəzərdən təhlil etdiyimiz zaman onları iki qrupa ayırmaq olar:

***1) Sərbəst HTB*** – *Le congé* ***de maternité*** – ***analıq*** *məzuniyyəti* söz birləşməsində ***maternité – analıq*** sözü öz müstəqil mənasını qoruyub saxladığı kimi ***le congé*** *payé – ödənişli* ***məzuniyyət*** söz birləşməsində *le* ***congé – məzuniyyət*** termini də öz həqiqi mənasını qoruyub saxlayır. Beləliklə, tam sərbəst HTB-nin komponentləri öz müstəqil mənalarını itirmir və digər terminlərlə birləşərək yeni birləşmələr əmələ gətirir.

***2) Leksik-frazeoloji tipli idiomlar şəklində HTB*** – a) Bu tip HTB-nin I növündə birləşmənin bir tərəfi öz həqiqi mənasında işlənir və yalnız bu komponent başqa terminlərlə birləşmə xüsusiyyətinə malikdir. *Le Corps de la Constitution* (Konstitusiyanın əsas qanunları), *le bulletin vierge* (boş bülleten) ifadələrində *le corps* (bədən, gövdə), *vierge* (bakirə) sözləri; *qanuni yolla*, *məhkəmədə çəkişən* və s. birləşmələrdə *yol, çəkişən* sözləri isə öz həqiqi mənalarından uzaqlaşmışdır.

b) Bu tip HTB-nin II növündə söz birləşməsinin tərəflərinin məna bütünlüyü konkret terminoloji mənanı ifadə edir. *La bonne mort* (hərf. asan ölüm – evtanaziya (bu ifadə xüsusilə müalicə olunmaz xəstələrin öldürülməsi haqqında istifadə edilir)); *təmiz əllər, yumşaq güc* və s.

---

[24] Клюева, Т.Б. Современные тенденции развития новых медицинских терминологий // Сборник научных трудов,– Москва:МГПИИЯ,–1987. вып. № 292, – с. 80

III bənd **"Hüquq termin-söz birləşmələrinin struktur-sintaktik təhlili"** adlanır. Müxtəlifsistemli dillərdə HTB-nin komponentlərinin bir-birilə birləşməsi bu dillərin sintaktik təliminə uyğun olaraq baş verir. Formal-qrammatik vasitədən istifadə edilmədən HTB-nin müxtəlif nitq hissəslərindən ibarət tərəfləri arasındakı sintaktik əlaqələr, əsasən, yanaşma əlaqəsi vasitəsilə ifadə edilir. Eləcə də, Azərbaycan dilində qarşılıqlı tabelilik əlaqəsi əsasında yaranmış II növ təyini söz birləşmələri şəklindəki HTB-də yanaşma-uzlaşma əlaqəsi də müşahidə edilir. Tabelilik əlaqəli HTB-də tərəflər arasında sintaktik əlaqələrin digər ifadə forması, əsasən, qrammatik əlaməti hal şəkilçisi olan idarə əlaqəsidir. Hal kateqoriyası inkişaf etməyən dillərdə idarə əlaqəsindən danışmaq olmur. Belə ki, həmin dillərdə sözlər şəkilçisiz olsa da, hal mövqeyi müxtəlif sözönülər vasitəsilə ifadə edilə bilir (*levée **du** corps* (cəsədin qaldırılması). Lakin sözlər qrammatik hal formasına malik olmadığından onlarla əlaqədar olduqları sözlər arasındakı sintaktik əlaqənin idarə əlaqəsi olduğunu söyləmək doğru deyil.

Analitik-sintetik quruluşlu Azərbaycan dilində isə birləşmənin komponentləri arasındakı tabelilik və qarşılıqlı tabelilik əlaqəsinin ifadə forması təkcə idarə deyil, qoşmalı idarə və idarə-uzlaşma əlaqələridir.

III fəslin IV paraqrafı **"Hüquq terminlərinin yaranmasında tərcümə üsulu kimi kalkaetmənin iştirakı"** adlanır. Kalka üsulu dildə mövcud olmayan anlayış və məfhumların adlarının struktur-semantik modellərinin dilin daxili söz yaradıcılığı imkanları vasitəsilə müvafiq qaydada və xüsusilə hər bir milli dilin qrammatik qanunlarına əsaslanan modellər vasitəsilə və mümkün səviyyədə dəqiq surətinin çıxarılması ilə tərcümə etməkdir. Kalkaların mənbə dildəki müvafiq sözü struktur-semantik cəhətdən əks etdirməlidir fikri bəzən özünü tam doğraltmur. Sözyaradıcılığı strukturunun və mənasının kopyalanmasının hərfilik dərəcəsinə görə leksik-struktur kalkalar iki qrupa – dəqiq və qeyri-dəqiq kalkalara bölünmüşdür[25].

---

[25]http://docplayer.ru/27863813-Kalkirovanie-kak-sposob-nominacii-v-russkom-yazyke-na-perelome-hh-i-hhi-stoletiy.html

Yad dildəki sözün struktur və mənasını **qismən** eynilə əks etdirən kalkalar dəqiq kalkalardır: *a law of hearsay – droit du ouï-dire* (özgəsinin dediklərinə əsaslanan şahidlik hüququ), *ответчик – cavabdeh.* Hüquq terminologiyasında, xüsusilə komponentlərin sayı, quruluşu və mənası ilə bağlı dəyişiklikləri ehtiva edən qeyri-dəqiq kalkalar isə altı qrupa bölünür ki, bunlardan biri mənbə dildəki TB-nin birləşmə şəklindəki tərkib hissəsinin sadə sözlə ifadə edilməsidir (*a right to **remain silent** – droit au **silence** – **susmaq** hüququ*).

III fəslin V paraqrafında **"Abreviaturlar"**dan bəhs edilir. Konkret məfhumu işarələyən, mürəkkəb söz və söz birləşmələri kimi nominativ xarakterə malik, mürəkkəb ixtisarlar adlandırılan abreviaturların əsasən, hərf ixtisarları (*AŞPA – Avropa Şurasının Parlament Assambleyası, D.-L. – décret-loi* (dekret-qanunu)) və heca ixtisarları (*avtoqəza; l`eurodéputé* (Avropa parlamentinin deputatı) növü daha çox istifadə edilir. Həmçinin, fransız dilində sözlə birgə hərf və heca ixtisarlarının (*Cour EDH – Cour européenne de drot de l`homme* (Avropa insan hüquqları məhkəməsi), *Cons. Europe – Conseil Europe* (Avropa Şurası)), eləcə də heca ixtisarları ilə birgə hərfi ixtisarların (*Cons. UE – Conseil de l`Union Européenne* (Avropa Birliyi Şurası) istifadə edildiyi qarışıq abreviaturlar da çoxluq təşkil edir.

III fəslin VI paraqrafı **"Alınma prosesi hüquq terminologiyasının zənginləşməsi yollarından biri kimi"** adlanır. Müvafiq məfhum və anlayışı ifadə edən termin və sözün olmaması, bu və ya digər anlayışı semantik cəhətdən dəqiq ifadə etmək ehtiyacı kimi səbəbləri ehtiva edən dildaxili amillərin təsiri ilə yanaşı, xalqların tarixi inkişaf prosesi, coğrafi yaxınlığından asılı olmayaraq müəyyən tarixi proseslərin nəticəsində yaranan ictimai-siyasi, mədəni, iqtisadi əlaqələr, müəyyən səbəblərlə əlaqədar ikidilliliyin mövcudluğu, qloballaşma prosesinin sürətli inkişafı, başqa sözlə, dünyaya inteqrasiya kimi dilxarici amillərin təsirini də nəzərdən keçirərək alınma HT-nin tədqiqinə bir neçə aspektdən yanaşmaq mümkündür.

***HT-nin alınma mənbələrinin dövrləşdirilməsi.*** Hüquq terminoloji layında alınmaların mənbələrinin dövrləşdirilməsi zamanı

məlum olur ki, fransız hüquq sistemi Roma hüququ üzərinə qurulduğundan əsasən latın mənşəli alınmalarla (*lex – la loi* (qanun), *judex – le juge* (hakim)) zənginləşmişdir. Bununla belə yunan (*l`apatride* (vətənsiz)), ingilis (*le dumping* (dempinq – rəqabət məqsədilə xarici bazarlarda malların öz dəyərindən ucuz qiymətə satılması)) və hətta XIX əsrin I yarısından etibarən ərəb ölkələrinin Fransa tərəfindən işğalından sonra birbaşa ərəb dilindən də (*la kafala* (كفالة - azyaşlı uşaqların qanuni olaraq qəbul edilməsi), *le makfûl* (مكفل - qanuni olaraq qəbul edilmiş azyaşlı uşaq)) HT alınmışdır. Azərbaycanda islam hüququnun təsiri ilə açar HT-nin böyük əksəriyyəti ərəb mənşəli (*hüquq, ədalət, məhkəmə*) olmuş, yalnız XIX əsrdən başlayaraq hüquq terminologiyamıza rus və rus dili vasitəsilə Avropa mənbəli alınmalar (*servitut* (lat., fr., alm., rus)) daxil olmuşdur.

***Hüquq sahəsində terminalma üsulları.*** Alınma üsullarına gəlincə burada, əsasən, yazılı terminalma üsulundan danışmaq olar. Yazılı üsulla terminalmada yazılı hüquqi mətnlərin tərcüməsi və mətbuat xüsusi rol oynayır. Tərcümə nəticəsində mövcud olmayan anlayışları ifadə etmək üçün yeni terminlərin yaradılmasının üç əsas növündən – kalkaetmə və neonimlərin yaradılması ilə yanaşı alınma prosesindən də bəhs edilir[26]. Hüquqi terminologiyada yazılı terminalma üsulunda II başlıca istiqamətdən biri mətbuat dilidir. Xüsusilə müasir dövrdə hüquqi məsələlərlə bağlı mətbu orqanlarda geniş auditoriyaya yönəlmiş yazılara rast gəlmək olur. *Staliya, delimitasiya, demarkasiya* kimi bir çox alınma HT-nin mətbuatda istifadəsini görmək olar.

***Alınma HT-nin fonetik, qrafik mənimsənilməsi.*** Alınma terminlərin bir dilin tam hüquqlu üzvünə çevrilməsi üçün həmin sözlərin *"ədəbi dil normaları ilə qanuniləşdirilmiş və nizama salınmış, ..."*[27]olması, fonetik, qrammatik və semantik nöqteyi-

---

[26] Didier, M.E. La common law en français.Etude juridique et linguistique de la common law français au Canada//Revue internationale du droit comparé, –1991. vol. 43, №1, – pp. 7-56.

[27]Əfəndiyeva, T. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Əfəndiyev. – Bakı: Elm, – 1980. – 250 s.

nəzərdən mənimsənilməsi lazımdır. Alınma HT-nin qrafik mənimsənilməsini belə qruplaşdırmaq olar: 1) Transliterasiya yolu ilə tam qrafik mənimsənilmiş HT: *the jury – le jury; факт – fakt, диспач – dispaç*; 2) Transliterasiya yolu ilə qrafik dəyişikliyə məruz qalaraq mənimsənilmiş HT: *petrodollars – le pétrodollars; демередж - demerec, преюдиция – preyudisiya*. Qeyd etmək lazımdır ki, dillərin fonetik xüsusiyyətlərindən, "*vurğunun yeri və xarakteri, saitlərin uzunluğu və qısalığı, samitlərin yumşaqlığı və qalınlığı, heca bölgüsünün sərhəddi*"[28] kimi amillərdən irəli gələn fərqlər səbəbilə bir çox hallarda mənimsənilmiş terminlərin səs tərkibinin dəyişdiyini və aksentoloji cəhətdən fərqlilik qazandıqlarını görmək mümkündür.

***Alınma HT-nin semantik mənimsənilməsi.*** Reseptor dildə HT-nin semantik cəhətdən mənimsənilməsinin 7 halı aşkarlanmışdır. Onlardan biri mənbə dildəki II mənanın reseptor dildə əsas məna olaraq mənimsənilməsidir. Ərəb dilində *cərimə* sözünün ilkin mənası *günah, təqsir, cinayət*, II mənası isə *pulla tənbeh* deməkdir. Bu söz I mənada deyil, *təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləği* definisiyası ilə II mənada qəbul edilmişdir. *La préjudice* (zərər, ziyan) termini əsas mənanı deyil, etimon dildə II hesab edilən mənanı ifadə edir. Belə ki, latın dilində *praejudicum* sözünün əsas mənası əvvəlcədən qərar verməkdir. Latın dilində *prae* əvvəl, *judicum* isə *judicare* felindən olub qərarı, hökmü demək ifadəsindəndir ki, bu da vaxtından öncə verilmiş qərarı, nəticə etibarilə zərərli olan qərarı ifadə etmək deməkdir. I məna isə fransız dilində *préjuger* (əvvəlcədən müvəqqəti qərar çıxarmaq) termini ilə ifadə edilir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatdan əldə edilmiş elmi qənaətlər ümumiləşdirimişdir.

1. Diaxronik aspektdən aparılan təhlil göstərir ki, hal-hazırda elmi-tətbiqi fənn olaraq qəbul edilən müasir terminşünaslıq elminin inkişafında XX əsrin 30-cu illəri preskriptiv yanaşmanın üstünlük təşkil etməsi ilə diqqəti cəlb etsə də, daha sonralar terminologiyanın

[28]Məmmədli, N. Azərbaycan dilində alınma terminlər / N.Məmmədli. –Bakı: Elm və təhsil, – 2017. –s. 383

təbii dilin leksik-semantik sisteminin xüsusi funksiyalı layı olaraq nəzərdən keçirilməsi ilə bağlı deskriptiv yanaşmaya üstünlük verilmişdir. Bu yanaşma çərçivəsində 70-80-ci illərdən etibarən termin təbii dilin müstəqil funksional altsistemi olan XMD-nin leksik tərkibinin bir hissəsi olaraq nəzərdən keçirilməyə başlamışdır. 90-cı illərin sonlarından etibarən qərb dilçiliyində koqnitiv dilçiyin də təsirilə ənənəvi terminologiya məktəblərinin ideyalarını tənqid edərək xüsusi mətnlərin təsviri və təhlili çərçivəsində terminə yeni – sosio-mədəni, koqnitiv və kommunikativ-praqmatik nöqteyi-nəzərdən yanaşan nəzəriyyələr meydana gəlmişdir. Nəhayət, 2000-ci illərdən etibarən terminologiya, termin ehtiva edən mətnlər və idrak prosesində yaranmış, xüsusi diskursda verballaşmış xüsusi konsept olaraq nəzərdən keçirilən termin anlayışları terminşünaslıq elmində yeni bir mərhələ hesab edilən koqnitiv terminşünaslıq baxımından yenidən nəzərdən keşirilməyə başlamışdır.

2. HT-nin semantik xüsusiyyətlərinin tədqiqi nəticəsində hüquq terminologiyasında sırf HT və ümumişlək söz olaraq da istifadə edilən hüququn açar terminləri ilə yanaşı, hüquqi diskursda xüsusi təyinat almaqla hüquq termini statusu qazanmış ümumişlək leksikaya mənsub olan sözlər və “avto müəyyən edilmiş” HT-nin mövcudluğu aşkarlanmışdır. Sonuncu qrupa daxil olan terminlər heç bir məna dəyişikliyinə uğramadan istifadə edilən və sadəcə hüquqi tənzimləmə obyektinə çevrilmiş ümumişlək sözlər və “texniki terminlər”dir.

3. HT-nin leksik-semantik xüsusiyyətlərinin təhlili zamanı aşkarlanmışdır ki, bu terminlər müəyyən fərqlər nəzərə alınmaqla təbii dilin elementlərinin malik olduğu sinonimlik, çoxmənalılıq, omonimlik və antonimlik kimi leksik-semantik xüsusiyyətlərə malikdir. Antonimlik və fərqli semantik sahələrdə çıxış etdiyindən mövcudluğu mətnin düzgün başa düşülməsinə maneə təşkil etməyən omonimlikdən fərqli olaraq hüquq terminologiyasında dubletlik dil faktı ilə yanaşı, nisbi sinonimliyin mövcudluğunun müəyyənləşdirilməsində bir sıra vacib amillər nəzərə alınmalıdır. Bu amillər sırasına işlənmə sferasında profil üzrə mətnlərin ixtisaslaşma dərəcəsi, profil və qeyri-profil jurnalistika kimi funksional üslubi layların nəzərə alınması və bu zaman kommunikasiya tərəflərinin

peşəkarlıq səviyyəsi, nitq və dil amilləri daxildir. Qeyd etmək lazımdır ki, dubletlərdən istifadə oxucunun diqqətinin korşalmaması və mətnin daha oxunaqlı olmasına köməklik etsə də, hüquqi korpusu araşdırmadan, xüsusilə ikidilli filoloji lüğətlərdə öz əksini tapan nisbi sinonimiyadan istifadə, həqiqətən, onun istifadə edildiyi mətnin peşəkarlıq səviyyəsinin azalmasına gətirib çıxarır.

Hüququn müxtəlif sahələrində yaranan daxili çoxmənalılıq və xüsusilə əsas əlamətə istinadən metonimləşmə əsasında yaranmış çoxmənalılığın aradan qaldırılması isə terminin mətn daxilində istifadəsi ilə mümkündür.

4. Hüquq terminologiyasında semantik üsulla termin yaradıcılığı, əsasən, mənanın dəqiqləşdirilməsi, mənanın dəyişərək xüsusiləşməsi və mənanın metaforikləşməsi nəticəsində baş verir. Mənanın metaforikləşməsi nəticəsində yaranmış və daxili formasına görə şəffaf olmayan və ya gizli motivləşmiş HT-nin kommunikativ-praqmatik və funksional-semantik aspektləri ancaq həmin terminlərin koqnitiv-diskursiv təhlili zamanı müəyyənləşə bilir.

5. HT affiksləşmə, apofonasiya, konversiya, morfoloji qoşulma kimi morfoloji üsullardan istifadə etməklə də yaranır. Azərbaycan dilində affiksləşmənin kök+leksik şəkilçi və kök+leksik-qrammatik şəkilçi modelindən, fransız dilində isə suffiksləşmə və prefiksləşmədən istifadə edilir. Həmçinin Azərbaycan dilində HT yalnız proqressiv istiqamətli pilləli törəmə – kök+şəkilçi zənciri – nəticəsində əmələ gəlir. Fransız dilində isə HT yaradıcılığında əvvəlcədən müəyyən edilmiş qayda üzrə müəyyən ardıcıllığa riayət etməklə aparılan mərhələli törəmə və onun başqa bir növü olan parasintetik törəmə iştirak edir.

6. Morfoloji qoşulma prosesinin ənənəvi meyarı müstəqil komponentlərdən təşkil olunmaqdır. Bununla belə, fransız dilçiliyində tərəflərindən ən az birinin yunan-latın mənşəli arxeokonstituentdən və yalnız bir tərəfi fraktokonstituentdən təşkil edilmiş neoklassik mürəkkəblər komponentlərinin linqvistik statusu ilə bağlı mübahisələrin mövcud olmasına baxmayaraq morfoloji qoşulmaya aid edilir. Həmçinin fransız dilində morfoloji qoşulma zamanı tərəflərindən birincisi forma və funksiya etibarilə söz və

prefiks arasında aralıq mövqedə duran önsıra hissəciklərdən ibarət MHT də yaranır.

7. Sintaktik üsulla yaranmış HT-ni iki qrupa bölmək olar: 1) MHT; 2) HTB. Struktur-semantik təhlil zamanı MHT iki qrupa bölünür. Yalnız I qrupa aid olan MHT tərəfləri müstəqil mənasını itirməmiş, aid olduqları məfhumlarla əlaqəsini birbaşa qoruyub saxlayan komponentlərdən təşkil olunur. Belə MHT-nin əsasında əsasən sərbəst söz birləşmələrinin dildə qənaət prinsipinə uyğun olaraq univerballaşması hadisəsi durur. Digər iki qrupa mənsub terminlər idiomlar şəklində təzahür edir.

HTB-ni komponentlərinin leksik-semantik xüsusiyyətlərini qoruyub saxlaması nöqteyi-nəzərdən təhlili zamanı iki qrupa ayırmaq olar: 1) Sərbəst HTB; 2) Leksik-frazeoloji tipli idiomlar şəklində HTB. II qrup öz növbəsində iki yerə bölünür: a) komponentlərindən biri məcazi mənada işlənən HTB; b) komponentlərinin leksik mənasından asılı olmayan HTB.

8. HTB-nin struktur-sintaktik təhlili zamanı aşkarlanmışdır ki, tabelilik əlaqəsi üzrə yaranmış HTB-də tərəflərarası sintaktik münasibətlər analitik quruluşlu fransız dilində vasitəli yanaşma və yanaşma-uzlaşma əlaqəsi, analitik-sintetik quruluşlu Azərbaycan dilində isə yanaşma, qoşmalar vasitəsilə yanaşma, yanaşma-uzlaşma, idarə, qoşmalı idarə və idarə-uzlaşma əlaqəsi ilə ifadə olunur.

9. HT-nin yaranmasında istifadə edilən kalkaetmə üsulu heç də həmişə müvafiq termini struktur-semantik cəhətdən dəqiqliklə əks etdirmir və hüquq terminologiyasında dəqiq kalkalarla yanaşı, qeyri-dəqiq kalkalar da aşkar edilmişdir.

10. HT-nin yaranma üsullarından biri də abreviaturlardır. Aşkarlanmışdır ki, fransız dilinin hüquq terminoloji layında ixtisarlar yaranma növlərinə görə daha rəngarəngdir.

11. Hüquq terminologiyasında alınmaların mənbələrinin dövrləşdirilməsi ilə bağlı təhlildə aşkarlanmışdır ki, fransız hüquq sistemi Roma hüququ üzərinə qurulduğundan ilk növbədə latın mənşəli alınmalarla zənginləşmişdir. Azərbaycan dilində tarixi şəraitlə əlaqədar olaraq islam hüququnun tətbiqi səbəbilə açar HT-nin böyük əksəriyyəti ərəb mənşəlidir. Yalnız XIX əsrdən başlayaraq

rus və rus dili vasitəsilə Avropa mənbəli HT dilimizə daxil olmuşdur. Alınma HT-nin semantik mənimsənilmə planında təhlili göstərir ki, bu terminlər reseptor dildə lazımi mənaları ilə qəbul edilir və funksional-semantik cəhətdən assimilyasiyasını başa çatdırarkən etimon dildəki mənasından fərqli, yeni semantik strukturla çıxış edən, söz yaradıcılığı imkanları olan vahidlərə çevrilir.

**Dissertasiya mövzusu ilə əlaqədar müəllifin aşağıdakı məqalə və tezisləri çap olunmuşdur:**


1. Hüquq termin-söz birləşmələrinin struktur-semantik təhlili (Fransız və Azərbaycan dilləri materialları əsasında) // –Bakı: Tədqiqlər 2, – 2014. – s.199-207
2. Terminologiya məsələsinin diaxronik aspekti // –Bakı: Filologiya məsələləri, – 2014. №2, – s. 219-225
3. Hüquq dili yurilinqvistikanın mərkəzi anlayışı kimi // – Gənc alimlərin IBeynəlxalq elmi konfransı. II hissə, – Gəncə: – 17 – 18 – oktyabr – 2016, – s.66-68
4. Исследование юридических терминов как объекта юридического языка (на основе материалов французского и азербайджанского языков) // Науковий вісник Міжнародного гумантарного університету, Серія: Філологія, – 2017. Випуск 31 том 3, – с.80-83
5. Alınma hüquq terminlərinin tarixi-sosioloji prinsipdən tədqiqi (Fransız və Azərbaycan dilləri materialları əsasında) // – Bakı: Dil və ədəbiyyat, – 2018. №2 (106), – s. 117-121
6. Mürəkkəb hüquq terminlərinin struktur-morfoloji təhlili (Azərbaycan və fransız dillərinin materialları əsasında) // – Bakı: Tədqiqlər 1, – 2018. – s. 105-112
7. Sintaktik üsulla yaranmış mürəkkəb hüquq terminlərinin struktur-semantik təhlili (fransız və Azərbaycan dili materialları əsasında) // – Bakı: Terminologiya məsələləri, – 2018. №1, – s. 205-214

8. Hüquq terminlərinin yaradılmasında məna xüsusiləşməsinin rolu // – Gənc tədqiqatçıların II Respublika elmi-praktik konfransının materialları. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunur, – Bakı: – 15 mart – 2019, – s.144-145

9. Перевод при создании юридических терминов с участием кальки // “Advancesinscienceandtechnology”. XXV Международная научно-практическая конференция, – Москва: – 15 декабря – 2019, – с.76-79

10. Типологическая классификация юридических терминов по их семантическим особенностям (на основе материалов французского и азербайджанского языков) // Национальная Ассоциация Ученых, – 2020. № 51, ч.3, – с.48-52

11. Hüquq terminologiyasında antonimlik (Azərbaycan və fransız dilləri materialları əsasında) // –Bakı: Filologiya məsələləri, – 2024. №9, – s. 196-202

Dissertasiyanın müdafiəsi 14 Yanvar 2025-ci il tarixində saat $13:^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.
Ünvan: Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 13 Dekabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.11.2024
Kağız formatı:A5
Həcm: 47 627
Tiraj: 100